# Sevgi və diqqət bayramı

***Artıq 100 ildən çoxdur ki, dünyanın əksər ölkələrində 8 Mart qadın və gözəllik bayramı kimi qeyd olunur. Ancaq bu bayramın tarixi daha qədimdir.***

***Belə ki, hələ qədim romalılar mart ayında qadınlar bayramını qeyd edirdilər. Həmin gün qadınlar həyat yoldaşlarından hədiyyə almaqla bərabər, diqqət və qayğı ilə daha çox əhatə olunurdular. Hətta qul qadınlar bayram günü bütün işlərdən azad olunur və hədiyyələrlə mükafatlandırılırdılar. Gözəl və yaraşıqlı paltar geyinən romalı qadınlar İlahə Vestranın (o, ailə ocağının qoruyucusu hesab olunurdu) məbədinə gəlirdilər.***

Bu gün qeyd olunan 8 Mart bayramının tarixi isə daha sonralara—yeni tarixə təsadüf edir.

1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində tikiş və ayaqqabı fabrikində işləyən minlərlə qadın nümayişə çıxaraq 16 saatlıq iş gününün 10 saata düşürülməsini, kişilərlə bərabər hüquqlara, o cümlədən seçki hüququna malik olmalarını tələb edirdilər. Qadınların nümayişi polisin sərt hərəkəti ilə qarşılansa da 8 mart 1857-ci ildəki nümayişdən sonra əksər tələbləri yerinə yetirildi.

1910-cu ildə Avropa ölkələrinin ictimai fəal qadınlarının Kopenhagendə keçirilən konfransında yəhudi əsilli almaniyalı qadın Klara Setkin 8 martın beynəlxalq qadınlar günü kimi qeyd olunması təklifi ilə çıxış etdi.

1911-ci ildən başlayaraq Avropanın əksər ölkələrində 8 Mart qadınlar günü kimi qeyd olunmağa başlandı.

Keçmiş SSR-də 8 Mart dövlət bayramı kimi qeyd olunurdu. 1965-ci ildən isə həmin gün qeyri iş günü sayılmağa başlandı.

Birləşmiş Millətlər Təşkilatı 1977-ci ildə 8 Martı «Beynəlxalq Qadınlar Günü» elan etdi. Bununla da 8 Mart siyasi mahiyyətini itirib əsil sevgi, diqqət bayramına çevrildi.

Müstəqilliyimizin ilk illərində heç bir siyasi mahiyyət daşımayan Yeni il, 9 May bayramları kimi 8 Mart da bayramların siyahısından çıxarıldı.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra 8 Mart bayramı da ölkəmizdə qeyd olunmağa başlandı və həmin gün qeyri-iş günü hesab edildi.

8 Mart günü güclü cinsin nümayəndələri ətrafdakı qadınlara diqqət, qayğı və sevgilərini nümayiş etdirirlər. Qadınlar gül-çiçək, müxtəlif hədiyyələr, həmçinin gözəl sözlərlə mükafatlandırılır.

# Ana dilimiz qürurumuzdur

Qəbələ şəhər 4 nömrəli tam orta məktəbində Beynəlxalq Ana Dili Günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri məktəbin müəllimi Vüsalə Sadıqova açmışdır. O bildirmişdir ki, Birləşmiş Millətlər Təşkilatının 1999-cu ilin noyabrında qəbul etdiyi qərara əsasən hər il 21 fevral Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Dünyada insanlar arasında ünsiyyət vasitəsi kimi altı minə yaxın dil, 200-ə yaxın müstəqil dövlət mövcud olsa da cəmi 70-ə yaxın dil dövlət dili statusu daşıyır. Qürurverici haldır ki, ulu öndər Heydər Əliyevin fədakarlığı sayəsində bizim dilimiz—Azərbaycan dili də dövlət dili statusundadır.




Rayon təhsil şöbəsi metokabinetinin müdiri Arifə Bayramova, məktəbin direktoru Qəşəngi Musayeva və başqaları çıxış edərək ana dilimiz haqqında, ona hörmət və ehtiram göstərilməsinin zəruriliyi haqqında danışmışlar.



Çıxış edənlər ana dilimizin dövlət dili statusu olmasında, saflığının qorunub saxlanmasında ulu öndər Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri olduğunu xüsusi vurğulamışlar.

Sonra söz məktəbin yuxarı sinif şagirdlərinə verilib. Onlar ana dilinə həsr olunmuş kompozisiya nümayiş etdirmiş, şeirlər söyləmişlər.

**«Qəbələ»**

**Səfa Aslanov (foto).**

# Mükəmməl hüquqi baza mövcuddur

***Azərbaycan Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na uyğun olaraq fevralın 21-də Qəbələ Mədəniyyət Mərkəzində dairə seçki komissiyaları üzvlərinin və məntəqə seçki komissiyaları sədrlərinin maarifləndirilməsi məqsədilə üçgünlük kurs keçirilmişdir.***



Kursun məşğələlərində 116 saylı Qəbələ Dairə Seçki Komissiyasının üzvləri, dairənin əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri iştirak etmişlər.

Tədris məşğələsində rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova "Seçki hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüququnun qorunması mexanizmləri" haqqında məruzə etmişdir.

Daha sonra rayon prokurorunun köməkçisi Zamir Paşayev "Seçki subyektləri, seçkidə iştirak hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri", polis şöbəsi rəisinin müavini Aləddin Nuhov "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu və seçki komissiyaları ilə qarşılıqlı əlaqələri", Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov "Seçki prosesində KİV-lərin rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri" və dairə seçki komissiyasının sədri Ramiz Əsədov "Seçici siyahıları ilə iş qaydası" mövzularında məruzələrlə çıxış etmiş, sualları cavablandırmışlar.



Qeyd olunmuşdur ki, ölkəmizdə seçkilərin yüksək səviyyədə, demokratik və şəffaf keçirilməsi üçün möhkəm hüquqi baza mövcuddur. Azərbaycan Respublikasının Konstitusiyasında, Seçki Məcəlləsində bu hüquqlar beynəlxalq normalara uyğun təsbit olunmuşdur.

Tədris məşğələlərində seçkiqabağı kütləvi təşviqat zamanı iştirakçıların təhlükəsizliyinin təmin olunması, seçicilərlə görüşlərin keçiriləcəyi yerlərdə ictimai asayişin qorunması, həmçinin seçki sənədlərinin daşınması və mühafizəsi barədə qanunvericiliyə uyğun həyata keçirilən tədbirlərdən danışılmışdır. Eləcə də seçki prosesi ilə bağlı daxil olan hər hansı müraciətin operativ surətdə həlli istiqamətində qanunvericilikdə müəyyən edilmiş qaydalar geniş şərh edilmişdir.

**"Qəbələ"**

# Əhalinin siyahıya alınması vacib məsələdir

BMT-nin tövsiyələrinə uyğun olaraq hər on ildən bir dünyanın bütün ölkələrində əhalinin siyahıyaalınması aparılır. Azərbaycanda əhalinin siyahıyaalınması ümumilikdə 8 dəfə keçirilib. Sonuncu dəfə 2009-cu ildə aparılan siyahıyaalınma zaman ölkə əhalisi 8 milyon 923 minə yaxın olub.

Prezident cənab İlham Əliyev "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 7 sentyabr 2016-cı il tarixdə Fərman imzalamışdır. Fərmanla əlaqədar olaraq Nazirlər Kabineti "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 16 dekabr 2016-cı il tarixdə qərar qəbul etmişdir.

Qərara uyğun olaraq Qəbələ rayonunda əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə 2018-ci ilin oktyabr ayının 1-dən 10-dək əhalinin sınaq siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulmuşdur. 24 fevral 2017-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən əhalinin siyahıyaalınmasına yardım göstərilməsi məqsədilə müvafiq komissiyanın yaradılması barədə sərəncam verilmişdir.

Əhalinin siyahıyaalınması zamanı vətəndaşların cinsi, anadan olduğu tarix, nikah vəziyyəti, təhsili, məşğulluğu, fəaliyyət növü ilə bağlı məlumatlar qeydə alınacaq. Qanunvericiliyə əsasən mülkiyyət məsələləri ilə bağlı sualları ailə başçısı cavablandırır və siyahıyaalınma zamanı hər hansı hüquqi sənəd tələb olunmur. Körpə uşaqlar haqda məlumatları valideynlər verir. Eşitmə, görmə, danışıq qabiliyyətləri zəif olanlar barədə sualları isə onların valideynləri və ya qəyyumları cavablandırır.

Siyahıyaalınmada qocalar və uşaq evlərinin sakinləri, xarici ölkələrdəki Azərbaycan vətəndaşları, qaçqın və məcburi köçkünlər də hesablanır.

**Rayon statistika idarəsi.**

# Seminar keçirilmişdir

*Qəbələ Statistika İdarəsində statistik müşahidələrin və təhlillərin aparılması üçün statistika orqanlarına təqdim olunması zəruri olan məlumatların təqdim edilməməsi, vaxtında təqdim edilməməsi və yaxud hesabatların təhrif edilməsi zamanı inzibati xəta halı yaradan işlərlə bağlı qanunvericiliyin tətbiqi, protokol və qərarların (qərardadın) tərtib edilməsi qaydaları ilə əlaqədar seminar keçirilmişdir.*



*Respublika statistika idarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Ağsu, Balakən, İsmayıllı, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala və Şamaxı rayonlarının statistika idarələrinin əməkdaşları iştirak etmişlər.*

*Seminarda məlumatların təqdim edilməməsinə, vaxtında təqdim edilməməsinə və təhrif edilməsinə görə məsuliyyətə cəlb etmə qaydası seminar iştirakçılarının nəzərinə çatdırılmış və rayon statistika idarələrinin gələcək fəaliyyətlərində rast gələ biləcək bu kimi halların aradan qaldırılması yolları barədə geniş müzakirələr aparılmışdır.*

*Seminarda respublika statistika idarəsinin sektor müdiri Etibar Yaqublu və idarənin baş məsləhətçisi Şahin Sadıqlı iştirak ediblər.*

***"Qəbələ"***